

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 7 (21.159)

13 yanvar 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Yanvarın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərsun Holdinq" Şirkətlər Qrupunun "Xəyal Adası" layihəsi üzrə görülən işlərin gedişi ilə tanış olub.

Dövlətimizin başçısına "Xəyal Adası"nda görülən işlərlə bağlı ətraflı məlumat verildi. Bildirildi ki, Heydər Əliyev Beynəlxalq Aeroportuna gedən yolun üzərində yerləşən "Xəyal Adası"nın ərazisi 320 hektardır. Bu, yüksək standartlara cavab verən yaşayış, ticarət, əyləncə və idman sahələrini əhatə edən layihədir.

Azərbaycan Prezidenti "Xəyal Adası" qolf klubunda yaradılan şəraitlə də tanış oldu.

"Xəyal Adası"nın layihəsi ilə tanış olan Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, yaşayış sahəsində müasir tələblərə cavab verən yüksəkkeyfiyyətli 2100 mənzil, fərqli ölçülərdə və konseptlərdə 300 villa inşa olunur.

Dövlətimizin başçısı layihədən bəhs edən videoçarxa baxdı.

Prezident İlham Əliyev elektromobillə qolf sahəsini gəzdi, Qolf Akademiyasında yaradılan şəraitlə də tanış oldu.

Sonra dövlətimizin başçısı ərazini gəzdi, tikintisi davam etdirilən villalarda yaradılacaq şəraitlə tanış oldu.



## Naxçıvan: inkişafın Azərbaycan modelinin hərtərəfli tərəqqi möcüzəsi

*Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanda hakimiyyətə qayıdışı zərurəti reallığa çevriləndə O, 1990-1993-cü illərdə düşmən təcavüzündən və fəlakətlər girdabından xilas etdiyi Naxçıvanı özünün dövlətçilik məktəbinin yeni nəsil nümayəndəsinə etibar etdi. Və məhz bundan sonra Azərbaycanın xilası və inkişafı missiyasını həyata keçirməyə başlayan ümummilli liderin bilavasitə rəhbərliyi altında ölkəmizdə və Naxçıvan Muxtar Respublikasında müstəqilliyin verdiyi real imkanların ümummilli mənafelər naminə səfərbər və istifadə edilməsi kimi mühüm tarixi mərhələ başlandı. Azərbaycan Respublikası öz yoluna – dövlətçiliyin təkamülünün, sosial-iqtisadi inkişafın, elmi-mədəni tərəqqinin Heydər Əliyev yoluna qədəm qoydu.*

1995-ci ilin son ayında Naxçıvanda yaranan yeni siyasi şərait çox qısa zamanda öz nəticələrini verməyə başladı. Həm paytaxtın, həm də bütövlükdə, muxtar respublikanın bütün yaşayış məntəqələrinin yeni inkişaf konsepsiyasına uyğun qurulmasının zəruri əsasları təsis edildi. Bu o dövr idi ki, 1993-1995-ci illərdə ulu öndər tərəfindən ölkədə ictimai-siyasi sabitlik bərqərar edilmiş, 1996-cı ildə isə Azərbaycan iqtisadiyyatında uzun illərdən bəri geriləmənin qarşısı ilk dəfə alınmışdı. Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı da məhz həmin ilin ilk aylarından başladı.

***"Biz doğma Naxçıvanımızı möhkəmlətməklə ümumi evimiz olan Azərbaycanımızın möhkəmlənməsinə öz töhfəmizi veririk. Muxtar respublikamızı tərəqqiyə qovuşdurmaqla ümummilli liderimizin arzularını həyata keçirir, Heydər Əliyev ideyalarına sədaqətimizi əməli işdə sübut edirik"***

Ulu öndərin ölkəmizin düşdüyü ağır siyasi və iqtisadi şəraitin, yerləşdiyi geostrateji regionun və beynəlxalq amillərin sərt müqavimət şəraitində Azərbaycanda böyük qətiyyətlə həyata keçirdiyi dövlətçilik konsepsiyası və iqtisadi strategiya tezliklə öz bəhrələrini verməyə başladı. XXI əsrin Naxçıvan Muxtar Respublikası müstəqillik dövründə Azərbaycanın iqtisadi regionları içərisində inkişaf etalonuna və qısa müddətdə müasirləşməyin əsl nümunəsinə çevrildi. Yaradılmış dayanıqlı ictimai-siyasi sabitlik şəraitində iqtisadi artım, sosial-mədəni yüksəliş, elmi tərəqqi ilbəil faizlərlə deyil, dəfələrlə artım tempi ilə müşayiət olundu. Böyük ruh yüksəkliyi və heyrətamiz nəticələrlə tarixə yazılan 2013-cü il – "Heydər Əliyev ili"nin ardınca 2014-cü il – "Muxtariyyət ili"ndə də Naxçıvan həyata keçirilən quruculuq işləri ilə özünün möhtəşəm intibah mənzərəsini qoruyub saxladı və daha da möhkəmləndirdi.

Ötən il Ümumi Daxili Məhsul (ÜDM) istehsalının həcmi 2 milyard 388 milyon manatı ötdü, onun hər bir nəfərə düşən həcmi isə 5459 manat təşkil etdi. Xatırladaq ki, bu rəqəmlər 1995-ci ildəki göstəricidən müvafiq olaraq 55 dəfə və 41 dəfə artıq nəticələrdir. 2014-cü ildə maddi istehsal sektorunun ÜDM-də payının 63, özəl bölmənin xüsusi çəkisinin 87 faiz olması illərdir, dayanıqlı, sabit iqtisadi artımın, özəl sektorun sürətli inkişafının nəticəsi oldu. Ötən ilin sənaye istehsalı ÜDM-də 892 milyon, kənd təsərrüfatı istehsalı isə 355 milyon manatlıq paya sahib oldu, muxtar respublikanın şəhər və rayonlarında 47 yeni istehsal və xidmət sahəsi yaradıldı. Xatırladaq ki, 1995-ci ildə sənaye məhsulunun istehsalı 97 dəfə daha az – cəmi 9 milyon 133 min manat, kənd təsərrüfatı istehsalı isə 9 dəfə daha az – 38,6 milyon manat təşkil edirdi.

Təkcə "Muxtariyyət ili"ndə 296 obyektin tikintisi, yenidən qurulması, təmiri və ya bərpası başa çatdırılaraq istifadəyə verilmişdir. Eyni zamanda müəlliflik hüququ muxtar respublikamıza aid olan kəndlərin spesifik üsulla inkişafı siyasəti ötən il daha 9 kənd və 8 xidmət mərkəzinin istifadəyə verilməsi ilə nəticələnmişdir. Yol-nəqliyyat infrastrukturunun yenilənməsi davam etdirilmiş, 73 km uzunluğunda asfalt yollar salınmış, 5 körpü tikilmişdir. İntibah dövründə, bütövlükdə, 105 kənd mərkəzi, 3 qəsəbə, 1 şəhər mərkəzi istifadəyə verilmişdir.



Aparılan sosial-iqtisadi siyasət muxtar respublikamızın xarici ticarət əlaqələrinin həcminin artması və coğrafiyasının genişlənməsi ilə nəticələnmişdir. Ötən il xarici ticarət əməliyyatlarının həcmi 515 milyon 194 min ABŞ dolları təşkil etmişdir. Ticarət əməliyyatlarının 408 milyon 640 mini ixracın, 106 milyon 554 mini isə idxalın payına düşmüşdür ki, bu da 302 milyon 86 min ABŞ dolları həcmində müsbət saldonun yaranmasına səbəb olmuşdur. Xatırladaq ki, ümumi xarici ticarət dövriyyəsi 1995-ci ildə bundan 27 dəfə az – 19 milyon 24 min, ixracın həcmi isə 211 dəfə az – 1 milyon 937 min ABŞ dolları həcmində idi. Ümumiyyətlə isə xarici ticarətdə müsbət saldoya ilk dəfə 2009-cu ildə nail olunmuş və ötən illərdə bu nəticə yalnız daha da artaraq möhkəmlənmişdir.

***"Hər bir ölkənin və ya regionun inkişafı iki mühüm faktordan asılıdır. Onlardan birincisi enerji təhlükəsizliyidirsə, ikincisi ərzaq təhlükəsizliyidir"***

Müasir dünyada enerjinin bir sıra iri dövlətlərin toqquşma amilinə, birinin digərinə ən güclü təsir silahına çevrildiyi, ayrı-ayrı ölkələr və xalqlar üçün həyati əhəmiyyət kəsb etdiyi bir vaxtda Naxçıvanın enerji təhlükəsizliyi tam təmin edilmiş, muxtar respublikamız enerji ixracatçısına çevrilmişdir. 2014-cü ildə muxtar respublikanın 90 illik yubiley tədbirləri çərçivəsində Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə gücü 20,5 meqavat olan "Arpaçay-1" və gücü 1,4 meqavat olan "Arpaçay-2" Su Elektrik stansiyalarının istifadəyə verilməsi ilə yaradılan yeni elektrik stansiyalarının sayı 6-ya çatmışdır ki, bu da bölgəmizin elektrik enerjisinə olan tələbatının bərpa olunan enerji mənbələri hesabına ödənilməsinə imkan verir.

2005-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafına, 2008-2015-ci illərdə muxtar respublikada əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına, 2012-2015-ci illərdə meyvəçiliyin və tərəvəzçiliyin inkişafına dair dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin böyük hissəsi artıq real həyatda öz əksini tapmışdır. Belə ki, hazırda muxtar respublikada 352 növdə (117 ərzaq, 235 qeyri-ərzaq) məhsul istehsal edilir. Artıq 107-si ərzaq və 229-u qeyri-ərzaq olmaqla, 336 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. 2014-cü ildə 60 min 829 hektar sahədə əkin aparılmış, 35 min 750 hektar sahədən 103 min 70 ton taxıl, 2962 hektar sahədən 41 min 406 tona yaxın kartof, 6125 hektar sahədən 66 min 731 ton tərəvəz tədarük olunmuşdur. 2014-cü il dekabrın 27-də keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında 2015-ci il muxtar respublikamızda "Kənd təsərrüfatı ili" elan edilmişdir ki, bu da cari ilin aqrar sahədə daha böyük nailiyyət vəd etdiyinə şübhə yeri qoymur.

***"Hər bir xalqın intellektual potensialını formalaşdıran və elmi səviyyəsini yüksəldən əsas sahə təhsildir"***

Hər bir cəmiyyətdə təhsilə qoyulan vəsait həmin ölkənin və xalqın gələcəyinə qoyulan ən dəyərli sərmayə hesab olunur. Bu mənada muxtar respublikamızda prioritet olan bu sahə ötən il də bir sıra uğurlarla zəngin olmuşdur. İl ərzində 19 tam orta məktəb binasında tikinti, yenidənqurma və əsaslı təmir işləri həyata keçirilmiş, həmin təhsil müəssisələrinin maddi-texniki bazaları gücləndirilmiş, məktəblər ən müasir informasiya və kommunikasiya avadanlıqları ilə təchiz olunmuşdur. Bundan başqa, Babək qəsəbəsində 242 yerlik uşaq bağçası, gənclərin müxtəlif peşələrə yiyələnmələri üçün Şərur rayonunda Texniki-Peşə və Sürücülük Məktəb Kompleksi tikilərək istifadəyə verilmişdir. 1996-2014-cü illərdə, ümumiyyətlə, 184 elm və təhsil müəssisəsi tikilmiş, 141 belə müəssisə isə yenidən qurularaq və ya əsaslı təmir edilərək istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı ilə 2014-2015-ci tədris ilindən etibarən muxtar respublikanın ümumtəhsil məktəblərində Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində şagirdlərin biliklərinin, milli-mənəvi irsimizə marağının və tədris prosesində əyaniliyin daha da artırılması üçün dərs zamanı muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr yaradılır.

Təhsil islahatı çərçivəsində görülən tədbirlər nəticəsində 2014-cü ilin qəbul imtahanlarında iştirak edən abituriyentlərdən 1725 nəfəri ölkənin ali məktəblərinə, 519 nəfəri isə orta ixtisas məktəblərinə daxil olmuş, ali məktəblərə 500-700 arası bal toplayaraq qəbul olunanların sayı 347 nəfər olmuşdur. Müqayisə üçün xatırladaq ki, 2005-ci ildə sonuncu rəqəm 4 dəfə az – cəmi 87 nəfər idi.

Təhsilin inkişafı, öz növbəsində, üzvi surətdə bağlı olduğu elmin də inkişafını şərtləndirir. Bu baxımdan ötən il muxtar respublikamızda elmi müəssisələrin və bu sahənin kadr potensialının inkişafı üçün uğurlu dövr olmuşdur. 2014-cü ildə Naxçıvan Dövlət Universitetinin Klinik Xəstəxanasının, Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin baytarlıq korpusunun yenidən qurulması başa çatdırılmış, Naxçıvan Özəl Universitetində yeni tədris korpuslarının və sosial obyektlərin tikintisi aparılmışdır.

***"Ordu hər bir xalqın güvənc yeri, özünütəsdiq imkanıdır. Tarix dəfələrlə sübut edib ki, peşəkar və güclü ordusu olmayan dövlət uzun müddət öz müstəqilliyini qoruyub saxlaya bilməz"***

Muxtar respublikamız coğrafi cəhətdən ana Vətənin əsas hissəsindən ayrı düşdüyündən onun təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin edilməsi, düşmənin hücum təhlükəsindən daha etibarlı qorunması daim dövlətimizin diqqət mərkəzindədir. "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" ölkə Prezidentinin 18 dekabr 2013-cü il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında yerləşən 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusunun yaradılması blokada şəraitindəki muxtar dövlətin hərbi cəhətdən gücləndirilməsi işinə böyük töhfə oldu. Belə ki, ötən il Naxçıvandakı hərbi birləşmələrin sayı və texnikası kəmiyyət və keyfiyyət baxımından artırıldı, onların hərbi arsenalına ən müasir silahlar daxil edildi.

Ardı 2-ci səhifədə

Hərbi hissələrin maddi-texniki təminatı davamlı olaraq möhkəmləndirilir, əsgərlər üçün məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır. 2014-cü ildə Kəngərli rayonundakı hərbi hissədə müasir avadanlıq, texnika və qurğularla təchiz olunmuş yeni Təlim-Tədris Mərkəzi və Naxçıvan şəhərində əsgər yataqxanası istifadəyə verilmişdir. Bütövlükdə, intibah dövründə muxtar respublikamızın müdafiə təminatının gücləndirilməsi çərçivəsində 188 obyekt, o cümlədən 17 qərargah binası, səfərbərlik və hərbi xidmətə çağırış, hərbi prokurorluq və hərbi hissələrin bölük mərkəzləri üçün 15 bina, 28 zabit və əsgər yataqxanası, 20 yeməkxana, 22 yaşayış binası, 5 tədris binası, 1 orta məktəb, 2 uşaq bağçası, 4 xəstəxana, 6 tibb məntəqəsi, 3 klub və daha 65 müxtəlif-təyinatlı obyekt tikilmiş və ya yenidən qurularaq istifadəyə verilmişdir.

***"Görülmüş işlər sübut edir ki, Heydər Əliyev yoluna, onun ideyalarına sədaqət sabitliyin və firavan həyatın təmin olunmasının başlıca meyarıdır"***

2013-cü il dekabrın 18-də təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində ötən il ərzində 3523 yeni iş yeri açılmışdır ki, bunun da 97 faizi və ya 3422-si daimi iş yerləridir. Ümumiyyətlə isə intibah dövründə 81851 yeni iş yeri yaradılmışdır ki, bunların da 55171-ni (67,4 faiz) daimi iş yerləri təşkil edir. Bu amil bir tərəfdən əhalinin məşğulluğu siyasətinin mühüm bəhrəsidirsə, digər tərəfdən insanların, xüsusən gənc nəslin faydalı əməyə cəlb olunması baxımından əhəmiyyətlidir.

Muxtar respublikamızın əhalisinin 62,3 faizini 35 yaşadək olan gənc nəsil təşkil edir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün uğurla davam etdirilən dövlət gənclər siyasəti cəmiyyətin əsas hərəkətverici qüvvəsinə çevrilən gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakını, onların sosial problemlərinin həllini ehtiva edir. Bu məqsədlə 2014-cü ildə ölkə başçısının muxtar respublikaya səfəri zamanı Naxçıvan şəhərində Gənclər Mərkəzi istifadəyə verilmişdir. Hazırda binada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu yerləşir və müxtəlif uyğun təşkilatlarla birlikdə gənclərin fəallığının artırılması, onların qüvvə və enerjisindən səmərəli istifadə olunması istiqamətində uğurla fəaliyyət göstərir.

Naxçıvan şəhəri artıq bir sıra beynəlxalq idman yarışlarının yüksək səviyyədə keçirildiyi məkana çevrilmişdir. Bu tədbirlər, əslində, muxtar respublikada bədən tərbiyəsi və idmanın kütləviliyinin təmin olunmasına xidmət etsə də, ölkəmizin beynəlxalq aləmdə təbliği, muxtar respublikamızda turizmin inkişafına stimul yaratmaq baxımından da böyük əhəmiyyət kəsb edir. 2014-cü ildə muxtar respublikanın idman salnaməsinə yeni uğurlar əlavə edilmişdir: Şərur şəhərində Əl Topu Oyunları İdman Meydançası yenidən qurulmuş, "Naxçıvan Open-2014" Beynəlxalq Şahmat Festivalı, sərbəst güləş üzrə gənclər arasında "Naxçıvan kuboku" uğrunda beynəlxalq turnir, ağır atletika üzrə veteranlar arasında dünya kuboku uğrunda yarış keçirilmişdir.

1996-2014-cü illərdə muxtar respublikamızda 23 idman obyekti tikilmiş, daha 18 belə obyekt yenidənqurma və ya əsaslı təmirdən sonra istifadəyə verilmişdir.

Əgər əvvəlki illərdə muxtar respublikanın paytaxtının və ayrı-ayrı yaşayış məntəqələrinin siması daha çox infrastruktur sahələrinin yenidən qurulması, müxtəlif inzibati binaların, sosial obyektlərin müasir mühəndislik nailiyyətlərinə uyğun inşası, tarixi abidələrin bərpası, mövcud yaşayış binalarının yüksək zövqlə üzlənməsi və əsaslı təmiri, küçə və məhəllələrin abadlaşdırılması, yaşıllıqların və gülkarlıqların salnaması hesabına dəyişirdisə, artıq bir neçə ildir ki, bu quruculuq siyasətinə ən müasir mənzillərdən ibarət zahirən zövqoxşayan tarixi memarlıq elementləri ilə çağdaş inşaat üslubunun vəhdətində ərsəyə gələn yeni yaşayış binaları da əlavə olunmuşdur.

"2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram" ötən il ərzində muxtar respublika paytaxtında genişmiqyaslı quruculuq və yenidənqurma işlərinin həyata keçirilməsi ilə səciyyəvi oldu. Azərbaycan Respublikası Konstitusiyasının 43-cü maddəsində nəzərdə tutulmuş mənzil hüququ muxtar respublikamızda böyük uğurla həyata keçirilməkdədir. Belə ki, ötən il Naxçıvan şəhərində gənc ailələrin mənzillə təminatının yaxşılaşdırılması məqsədilə "Gənclər şəhərciyi"nin təməli qoyulmuş, 80 mənzildən ibarət yeni yaşayış kompleksi istifadəyə verilmişdir. Şəxsi vəsait hesabına tikilən mənzillərin sahəsi 366 min kvadratmetr olmuşdur ki, bu da 1995-ci illə müqayisədə 21,5 dəfə çoxdur.

Muxtar respublika səhiyyəsinin inkişafı hər bir vətəndaş üçün ölkə Konstitusiyasının verdiyi sağlamlığın qorunması hüququnun gerçəkləşdirilməsinə xidmət edir. Son illərdə Naxçıvanda yaradılmış möhtəşəm səhiyyə infrastrukturu ötən il yeni obyektlər hesabına xeyli zənginləşmişdir. Bütövlükdə, il ərzində 15 səhiyyə obyekti tikilərək və ya yenidən qurularaq insanların sağlamlığına xidmət etməyə başlamışdır. 1996-2014-cü illərdə istifadəyə verilən yeni səhiyyə müəssisələrinin ümumi sayı 179 olmuş, daha 52 belə müəssisə əsaslı bərpadan və ya yenidənqurmadan sonra əhaliyə xidmət etməyə başlamışdır.

2014-cü ildə 537 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 441 minə yaxın ağac və gül kolu əkilmişdir. İndi muxtar respublika ərazisinin 12 faizini yaşıllıqlar təşkil edir ki, bu da əhalinin ekoloji cəhətdən daha sağlam mühitdə yaşamasına şərait yaradır. Xatırladaq ki, bu rəqəm 20 il əvvəl cəmi 0,6 faizə bərabər idi.

Muxtariyyətdə ictimai-siyasi sabitliyin, əhalinin firavan həyatının və sağlamlığının yüksək səviyyədə təmin edilməsi demoqrafik statistikaya və əhali məskunlaşmasına da müsbət təsir göstərmiş, 2014-cü ildə muxtar respublika əhalisinin sayı 1 yanvar 1996-cı ildəki göstəricini 102 min nəfər üstələyərək 439 min nəfəri ötmüşdür.

***"Bu gün inkişaf etmiş Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ümummilli liderimizin yaradıcı təliminə, inkişaf modelinə sanballı töhfədir"***

Böyük qürur və qətiyyətlə demək olar ki, bu gün Naxçıvan Muxtar Respublikası yalnız ölkəmizin və regionun deyil, bütövlükdə, planetimizin ən təhlükəsiz və kriminogen baxımdan ən sakit ərazisidir. İllərdir, muxtar respublikamızda müvafiq istiqamətdə aparılan tədbirlər insanların ən ümdə konstitusion hüquqlarından olan dinc, təhlükəsiz yaşamaq, mülkiyyət, mənzil toxunulmazlığı, şəxsi toxunulmazlıq, istirahət hüquqlarının təmin edilməsi üçün yüksəksəviyyəli şəraitin yaradılması ilə nəticələnmişdir. Bu tədbirlər bir tərəfdən hüquq-mühafizə orqanlarının iş şəraitinin, maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində aparılırsa, digər tərəfdən cəmiyyətdə hüquq tərbiyəsinin, hüquqi maarifləndirmənin yüksəldilməsi, üçüncü bir tərəfdən iqtisadi inkişafın nəticəsi olaraq, əhalinin məşğulluq səviyyəsinin artırılması və ən nəhayət, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, müxtəlif mədəni-kütləvi tədbirlər və idmanla əhatə olunması sahəsində görülən işlərlə təkmilləşdirilir. Bu baxımdan "Muxtariyyət ili" bölgəmizdə intibahın təntənəsi ilə yanaşı, həm də ictimai-siyasi sabitliyin və təhlükəsizliyin təminatı baxımından əlamətdar bir il olmuşdur.

Ölkəmizdə və onunla həmahəng sürətlə inkişaf edən muxtar respublikamızda yürüdülən sosial-iqtisadi siyasətin kökündə yalnız bir amil – insan amili dayanır. Ümummilli liderimizin müəllifi olduğu milli ideologiyanın sosial dövlətçilik istiqamətinin prinsipləri bu gün Naxçıvanda həyata keçirilən quruculuq tədbirlərində bir qırmızı xətt kimi keçir. Cəmiyyət, əhali, ayrı-ayrı insanlar öz həyatlarındakı müsbət dəyişiklikləri artıq ilbəil deyil, aybaay, günbəgün hiss edirlər.

***"Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar"***

27 ildir, düşmənin blokada şəraitində saxladığı, dünyanın yeganə eksklav muxtariyyəti olan Azərbaycanın əzəli və əbədi torpağı Naxçıvan bu gün beynəlxalq aləmə özünü XXI əsrdə inkişafın Azərbaycan modelinin hərtərəfli tərəqqi möcüzəsi kimi təqdim edir. Bu möcüzənin öz növbəsində Naxçıvan Muxtar Respublikasında milli-tarixi təcrübəyə, möhkəm elmi əsaslara söykənən müasir dövlət idarəçiliyi prinsiplərinin siyasi cəhətdən düzgünlüyünə, ümumbəşəri siyasi-hüquqi sistemin təşəkkülü elementlərinin milli ənənələrlə ən optimal sintezinə əsaslanan muxtar dövlət quruculuğu siyasətinin müdrik və uzaqgörən siyasi idarətmə prinsiplərinə, ən başlıcası isə Heydər Əliyev dövlətçilik məktəbinin zəngin irsinə istinad etdiyi şübhəsizdir.

*XXI əsr Naxçıvanının tam inkişaf mənzərəsini və intibah tablosunun ən yüksək qiymətini isə Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 90 illik təntənəli yubiley mərasimində vermişdir:* ***"Hesab edirəm ki, bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır".***

**Elman CƏFƏRLİ**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru***

## Naxçıvan Muxtar Respublikasının Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyasının 2014-cü ildə gördüyü işlər

Naxçıvan Muxtar Respublikasında milli-mənəvi dəyərlərimizin qorunması, dini tolerantlıq, dövlət-din münasibətlərinin nizamlanması sahəsində ardıcıl işlər aparılır. Bunun nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2014-cü il avqustun 20-də "Naxçıvan Muxtar Respublikasında multikulturalizm və dini məsələlər üzrə komissiyaların yaradılması haqqında" Sərəncam imzalamışdır. Sərəncamla Naxçıvan Muxtar Respublikasının Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyası yaradılmış, şəhər və rayon İcra hakimiyyətləri üzrə müvafiq komissiyaların yaradılması ilə bağlı tapşırıqlar verilmişdir. Ötən dövrdə bu tapşırığa uyğun olaraq, şəhər və rayon İcra hakimiyyətləri üzrə müvafiq komissiyalar yaradılmış, həmin komissiyaların üzvləri ilə 2014-cü il sentyabrın 29-da Naxçıvan şəhərində görüş keçirilmiş və fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir.

Komissiya hesabat dövründə muxtar respublikada dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində bir sıra tədbirlər həyata keçirmiş, milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində fəaliyyətini gücləndirmişdir. Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsi tərəfindən aparılan maarifləndirici söhbətlərin nəticəsində məzhəb ayrı-seçkiliyi salan dini ədəbiyyat və əşyaların muxtar respublika ərazisində yayılması hallarına rast gəlinməmişdir. Hesabat dövründə komissiyanın nümayəndələri rayon və kənd məscidlərindəki mövcud vəziyyətlə də yaxından tanış olmuşlar. Həmçinin dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi məqsədilə hər ay Naxçıvan şəhərindəki Heydər məscidində icma rəhbərləri ilə birgə tədbirlər və maarifləndirici söhbətlər aparılmışdır.

Hesabat dövründə Naxçıvan Dövlət Televiziyasında verilişlər təşkil olunmuş, müxtəlif materiallar hazırlanaraq dini icmalara paylanmış, həmçinin din xadimlərinə "İslam Dininin Əsasları" adlı vəsait verilmişdir. Din xadimlərinin dini biliklərinin artırılması da diqqət mərkəzində saxlanılmış, Naxçıvan şəhərindəki Heydər məscidində təkmilləşdirmə kursları təşkil olunmuşdur. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, hesabat dövründə muxtar respublika ərazisində dini mərasim və ayinlər milli-mənəvi dəyərlərimizə uyğun şəkildə qeyd edilmişdir.

Multikulturalizm və dini məsələlərlə bağlı muxtar respublika komissiyasının üzvləri rayonlarda yaradılmış komissiyalarla birgə Kəngərli, Ordubad və Şərur rayonlarında icra nümayəndələri və məktəb direktorlarının iştirakı ilə iclaslar keçirmişdir. Keçirilmiş iclaslarda komissiyanın iş planında nəzərdə tutulan vəzifələrin icrası ilə bağlı məsələlər qarşılıqlı müzakirə olunmuş, multikulturalizmin əhəmiyyəti və dini məsələlərlə bağlı çıxışlar edilmişdir.

Hesabat dövründə şəhər və rayon multikulturalizm və dini məsələlər üzrə komissiyaları tərəfindən Təhsil, Mədəniyyət və Turizm şöbələrinin iştirakı ilə müvafiq tədbirlər həyata keçirilmiş, geniş maarifləndirmə işləri aparılmışdır. Belə ki, Naxçıvan şəhərində və rayonlarda fəaliyyət göstərən dini icma nümayəndələri dini ədəbiyyatlarla təmin olunmuş, ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin iştirakı ilə "İşğal olunmuş torpaqlarımızın azad edilməsində dövlətimizə yardımçı olaq", "Multikulturalizm nədir və Azərbaycanda multikulturalizmin inkişafı", "Milli-mənəvi dəyərlərimizi qorumaq müasir gəncliyin ən mühüm vəzifəsidir", "Müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması və inkişafı", "Multikulturalizm mədəniyyətlərin, sivilizasiyaların dialoqunun zəruri alətidir" mövzularında seminarlar keçirilmiş, "Multikulturalizm Azərbaycanın dövlət siyasətidir", "Multikulturalizm beynəlxalq təcrübədə", "Multikulturalizmin əsas mahiyyəti və prinsipləri" mövzularında maarifləndirici söhbətlər aparılmışdır.

Bununla yanaşı, komissiya üzvlərinin iştirakı ilə görüşlər keçirilmiş, məscidlərin və dini ibadətgahların qorunmasına, onların yerləşdiyi binaların təmiz saxlanılmasına nəzarət edilmiş, dini bayramların, yas mərasimlərinin milli-mənəvi dəyərlərə və ənənələrə uyğun keçirilməsi təmin olunmuş, butipli mərasimlərin maarifləndirici xarakter almasına, vətənpərvərlik, qəhrəmanlıq, igidlik mövzularında söhbətlərin aparılmasına diqqət artırılmışdır.

Naxçıvan Muxtar Respublikasının Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyası 2015-ci ildə fəaliyyətini daha da gücləndirəcək, qarşıya qoyulan vəzifələrin icrasını nəzarətdə saxlayacaqdır.

***Naxçıvan Muxtar Respublikasının Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyası***

## Məktəb binasında son tamamlama işləri aparılır

Güclü maarifçilik ənənələri olan Ordubad şəhər 3 nömrəli tam orta məktəbi üçün yeni binanın inşa olunması həm məktəbin pedaqoji kollektivinin, həm də valideynlərin böyük sevincinə səbəb olub. Binanın tikintisinə ötən ilin mart ayından başlanılıb. Hazırda binada son tamamlama işləri görülür, həyətyanı ərazi qaydaya salınır. 774 şagird yerlik məktəb binasının inşası "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılıb. Bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Yeni məktəb binasında laboratoriyalar, hərbi kabinə, 48 sinif otağı, 4 elektron lövhəli sinif, 4 kompüter sinfi, idman zalı, 2 müəllimlər otağı, 2 bufet müəllim və şagirdlərin ixtiyarına veriləcək. Bu məktəbin tikintisi başa çatdıqdan sonra bölgədə yeni bina ilə təchiz olunan təhsil ocaqlarının sayı 23-ə çatacaq.

## "Riyaziyyat" fənni üzrə elmi-metodik seminar



Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbdə keçirilən seminarı giriş sözü ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin rəhbəri Sabir Məmmədov açaraq muxtar respublikada təhsil sahəsinə göstərilən dövlət qayğısından danışıb, son illərdə qəbul imtahanlarında əldə olunan göstəricilərin sevindirici olduğunu qeyd edib.

Seminarda Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) şöbə müdiri Afiqə Batıyevanın, Bakı Dövlət Universitetinin professoru Məmməd Yaqubovun, həmin ali təhsil ocağının dosenti İmran Abdullayevin, Azərbaycan Dövlət Neft Akademiyasının dosenti Səftər Hüseynovun, Bakı şəhər 82 nömrəli tam orta məktəbin müəllimi Əlican Namazovun çıxışları olub. Çıxışlarda Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən qəbul imtahanlarında istifadə olunan test tapşırıqlarının formaları və yeni təhsil proqramları (kurikulum) əsasında hazırlanmış 7-ci sinif dərslik komplektlərinin təhlili ilə bağlı görülən işlər barədə məlumat verilib, 2014-cü ildə keçirilən ali təhsil müəssisələrinə qəbul imtahanlarında istifadə edilən test tapşırıqları elmi-metodik baxımdan təhlil edilib. Bundan başqa, seminarda yeni təhsil proqramları (kurikulum) əsasında hazırlanan 7-ci sinif dərslik komplektinin monitorinqi də aparılıb.

Sonra çıxışlar ətrafında müzakirələr olub.

Xatırladaq ki, TQDK-nın təşkilatçılığı ilə həmin təhsil ocağında keçirilən növbəti seminar "Azərbaycan dili və ədəbiyyat" fənni üzrə olub.

***Xəbərlər şöbəsi***

“Kənd təsərrüfatı ili”

# Kənd təsərrüfatı qeyri-neft sektorunun önəmli sahəsidir



***Ölkəmiz davamlı və kompleks islahatlar strategiyasını dərinləşdirərək yeni əsrin ən inkişaf etmiş və islahatçı ölkəsi kimi tanınmaqla, qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan kənd təsərrüfatının inkişafında xeyli nailiyyətlər əldə etmişdir. Əldə olunmuş uğurların əsasında isə ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə həyata keçirdiyi aqrar islahatlar dayanır. Torpaq islahatlarının ilk dəfə ölkə üzrə Naxçıvanda, Müstəqil Dövlətlər Birliyi məkanında isə Azərbaycanda həyata keçirilməsi nəticəsində torpaq həqiqi mülkiyyətçisinə verildi, kənd təsərrüfatının inkişaf dövrü başlandı.***

Müasir şəraitdə, ölkəmizdə qeyri-neft sektorunun və regionların inkişafına xüsusi diqqət yetirildiyi bir vaxtda kənd təsərrüfatının inkişafı əsas istiqamətlərdən biri sayılır. Çünki istənilən ölkənin iqtisadi təhlükəsizliyi birbaşa kənd təsərrüfatının dayanıqlı inkisafından asılıdır. Hələ bizim eradan əvvəl yunan filosofu Ksenofot kənd təsərrüfatını bütün digər sahələrin anası adlandırırdı.

Kənd təsərrüfatı iqtisadi artımın başlıca hərəkətverici qüvvəsi hesab olunmaqla, onun yüksəlməsi, ümumilikdə, iqtisadiyyatın artımı deməkdir. İqtisadi artımın sürəti yüksək olan ölkələrdə ərzaqla təminolunma səviyyəsi də yüksək olur. Kənd təsərrüfatı insanlar üçün əsas ərzaq mənbəyi hesab edilir. Belə ki, əhalinin istehlak fondunun, ən azı, üçdə ikisi bilavasitə kənd təsərrüfatı məhsulları hesabına təmin olunur.

Dünya əhalisinin sürətlə artdığı, qlobal iqlim dəyişikliyinin intensivləşdiyi hazırkı dövrdə ölkələrin aqrar sektora ehtiyacı daha çox hiss olunur və ərzaq təhlükəsizliyi məsələsi daha qabarıq şəkildə özünü büruzə verir.

Ölkəmiz uzun zamandır ki, ərzaq təhlükəsizliyi ilə bağlı xarici və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. 1995-ci ildən Azərbaycan Respublikası BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının üzvü olmuş və bu müddət ərzində Texniki Əməkdaşlıq Proqramı çərçivəsində milli və regional səviyyədə bir neçə layihə həyata keçirilmişdir. Ölkədə ilk dəfə olaraq hazırlanmış Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi proqramı isə ümummilli lider Heydər Əliyevin 2 mart 2001-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Görülən işlərin məntiqi nəticəsi kimi ölkə Prezidenti cənab İlham Əliyev 25 avqust 2008-ci il tarixdə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Sərəncam imzalamışdır. 17 sentyabr 2008-ci il tarixdə isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” təsdiq olunmuşdur. Proqramın əsas məqsədi hər bir vətəndaşın sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul olunmuş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Onun uğurla icra edilməsi nəticəsində muxtar respublikada əsas ərzaq məhsullarının istehsalında müsbət nəticələr əldə edilmiş, yeni emal müəssisələrinin yaradılması, məhsul istehsalçılarına dövlət maliyyə yardımının göstərilməsi, güzəştli şərtlərlə gübrə satışının təşkili, əlverişli vergi mexanizminin tətbiqi, məhsulun satışı üçün yarmarkaların keçirilməsi kənd təsərrüfatı sahəsində məhsul istehsalının həcminin ilbəil artmasına səbəb olmuşdur. Ötən il muxtar respublikada həyata keçirilən uğurlu aqrar siyasət kənd təsərrüfatı məhsulları istehsalında əsaslı nailiyyətlərin əldə olunması ilə nəticələnmişdir. 2014-cü ildə, ümumilikdə, 355 milyon manatdan artıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bu, 1995-ci illə müqayisədə 9,2 dəfə çoxdur.

Mövcud yararlı torpaqlardan, o cümlədən əkinəyararlı torpaqlardan səmərəli istifadə edilməsi əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması ilə yanaşı, xarici bazardan asılılığın azaldılmasının potensial imkanları hesab edilir. Bu məqsədlə əkin aparılmış sahələr 1995-ci ilə nisbətən 2 dəfə artırılaraq ötən il 60 min 829 hektara çatdırılmışdır. Naxçıvan Muxtar Respublikasının daha çox meyvəçilik və tərəvəzçilik üzrə ixtisaslaşması nəinki ərzaq təminatını yaxşılaşdırır, həm də xarici bazara çıxış imkanlarını genişləndirir. Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi nəticəsində bu istiqamətdə xeyli uğurlar əldə edilmiş, 1995-ci illə müqayisədə ötən il 51,5 dəfə çox tərəvəz yığılmışdır.

Son illər əhalini payız-qış mövsümündə tərəvəz məhsulları ilə təmin etmək məqsədilə istixanalar yaradılmış və təkcə ötən il 6 istixana kompleksi fəaliyyətə başlamışdır.

Ölkə əhalisinin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və daha da yaxşılaşdırılması, təbii fəlakətlər zamanı ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlət ehtiyatlarının yaradılması zəruri hesab edilir. Hazırda muxtar respublikada taxılı uzun müddət saxlamağa imkan verən anbarların həcmi 27 min tona, kənd təsərrüfatı məhsullarının saxlanması və satışını təmin edən soyuducu anbarların sayı 20-yə, ümumi tutumu isə 12 min 250 tona çatdırılmışdır. Belə anbarların gələcəkdə sayının artırılması aqrar siyasətin mühüm istiqaməti kimi diqqətdə saxlanılır.

Kənd təsərrüfatı sənaye üçün xammal bazasıdır. Nəzərə alsaq ki, muxtar respublikada sənayenin aparıcı sahələri yeyinti və yüngül sənayedir, o zaman kənd təsərrüfatının muxtar respublika üçün nə qədər əhəmiyyətli bir sahə olduğunu görmək çətin olmaz.

Aqrar sektor yalnız ərzaq təhlükəsizliyinin təmin olunması baxımından deyil, həm də ekoloji tarazlığın qorunması istiqamətində də mühüm əhəmiyyət kəsb edir. Bir çox ölkələrdə kənd təsərrüfatı siyasəti ekoloji siyasətlə yanaşı qiymətləndirilərək ətraf mühitin və resursların qorunmasına imkan yaradır. Eyni zamanda kənd təsərrüfatı gəlirin, məşğulluğun və xarici ticarətin mənbəyi hesab edilir. Naxçıvan Muxtar Respublikası kifayət qədər geniş iqtisadi potensiala və ixtisaslaşma istiqamətinə malikdir. Həm dağlıq, həm də düzənlik ərazilər burada bitkiçiliyin və heyvandarlığın inkişafına əlverişli şərait yaratmaqla əhali gəlirlərinin yüksəldilməsində mühüm rol oynayır. Muxtar respublikada əhalinin böyük hissəsinin kənddə yaşaması burada məşğulluğun özünəməxsus xüsusiyyətlərini yaratmaqla böyük məşğulluq potensialına malik olan kənd əhalisinə xüsusi diqqət yetirilməsini zəruri edir. “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” bu istiqamətdə görülən işlərin daha da sürətlənməsində mühüm rol oynayır. Kəndlərdə məskunlaşmaya, məşğulluq səviyyəsinin yüksəldilməsinə xidmət edən və yerli təsərrüfatçılıq ənənələrinə əsaslanan kiçik sahibkarlıq subyektlərinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılması bu proqramda öz əksini tapan məsələlərdəndir.

Görülmüş işlər nəticəsində hazırda muxtar respublikada 107 növdə ərzaq məhsullarının istehsalına nail olunmuş, daxili ərzaq bazarının idxaldan asılılığının səviyyəsi xeyli azalmış, idxalın strukturunda bir zamanlar üstünlük təşkil edən ərzaq məhsulları öz yerini müasir texnika və avadanlıqlara vermişdir.

Ali Məclisin Sədri tərəfindən təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”da da kənd təsərrüfatının inkişaf istiqamətləri öz əksini tapmış, bu sahənin infrastruktur təminatının yaxşılaşdırılması və yeni emal müəssisələrinin yaradılması nəzərdə tutulmuşdur.

Beləliklə, 2015-ci il muxtar respublika üçün dörd mühüm dövlət proqramının icra müddətinin başa çatması ilə əlamətdar olacaq. Bu proqramların ikisi birbaşa kənd təsərrüfatının inkişafı ilə bağlı olsa da, digər ikisində bu sahənin inkişafı ilə bağlı əhəmiyyətli tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur. Məhz bu baxımdan 2015-ci ilin Naxçıvan Muxtar Respublikasında “Kənd təsərrüfatı ili” elan olunması heç də təsadüfi deyil. Ölkəmizdə də 2015-ci ilin “Kənd təsərrüfatı ili” elan olunması bütün diqqətləri kənd təsərrüfatına yönəltməklə bu sahənin daha da inkişaf etdirilməsinə güclü təkan verəcək, təsdiq olunmuş dövlət proqramlarının həyata keçirilməsi prosesini sürətləndirməklə, bütünlükdə, muxtar respublikamızın sosial-iqtisadi inkişafını dayanıqlı edəcək.

Aqrar sektorun inkişaf etdirilməsinin perspektiv istiqamətləri “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda da öz əksini tapmışdır. Yeni proqramda yerli və xarici investisiyaların cəlb edilməsi ilə ərzaq məhsullarının istehsal həcminin artırılması və keyfiyyətinə ciddi nəzarətin davam etdirilməsi, baytarlıq, texniki nəzarət, sanitar və fitosanitar tədbirlərin gücləndirilməsi, tələbatdan artıq istehsal edilən kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırılması, torpaqların meliorativ vəziyyətinin sağlamlaşdırılması, mövcud su resurslarından istifadə imkanlarının genişləndirilməsi, suvarma-drenaj şəbəkələrinin inkişaf etdirilməsi, maliyyə dəstəyinin gücləndirilməsi, kənd təsərrüfatı malları bazarlarının qorunması, maddi-texniki bazanın möhkəmləndirilməsi və digər mühüm tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur.

**Mehriban İMANOVA**
*iqtisad üzrə fəlsəfə doktoru*

***Muxtar respublikada həyata keçirilən iqtisadi siyasətin əsas məqsədlərindən biri də ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bunun üçün daxili bazarın tələbatına uyğun yerli məhsul istehsal edən müəssisələrin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Məhz həmin tədbirlərin nəticəsidir ki, bazar iqtisadiyyatının tələblərinə uyğun rəqabətqabiliyyətli müəssisələr yaradılır. Belə müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətidir.***

İstehsal müəssisələri

# “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi məhsullara tələbat artır

Dövlət maliyyə dəstəyi ilə müəssisədə 2003-cü ildə çörək, 2004-cü ildə makaron və peçenye, 2005-ci ildə isə süd məhsulları istehsalı sahələri yaradılıb. Bu istehsal sahələrində Almaniya, Türkiyə və İtaliya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Müəssisənin fəaliyyətinin genişləndirilməsi, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla istehsal gücünün artırılması, yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi məqsədilə Sahibkarlığa Kömək Fondundan 2008-ci ildə əlavə dövlət maliyyə dəstəyi göstərilib. Bu vəsaitlə çörək sexində istehsal gücü saatda 3000 ədəd çörək olan tam avtomatik yeni xətt istifadəyə verilib. Burada çörək dəmir üzərində deyil, daş üzərində bişirilir ki, bu da məhsulun daha keyfiyyətli istehsalı deməkdir. Daxili bazarın yüksəkkeyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına öz töhfəsini verən “Gəmiqaya Bərəkət Qida Məhsulları” MMC-də istehsal sahələri ilbəil genişləndirilir. Belə ki, 2011-ci ildə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla Şərq şirniyyatları istehsalı sahəsi yaradılıb, 2012-ci ildə kəpəkli çörək istehsalına başlanılıb. İnsan sağlamlığı üçün vacib elementlərlə zəngin olan kəpəkli çörək keyfiyyətli qida məhsulu kimi alıcılar tərəfindən rəğbətlə qarşılanıb. Elə bunun nəticəsidir ki, satışa çıxarılan kəpəkli çörəyə tələbat get-gedə artıb, ötən dövr ərzində kəpəkli çörək istehsalına keçid tam təmin olunub.

Müəssisədə istehsal olunan digər məhsullar da alıcılar tərəfindən rəğbətlə qarşılanır. Makaron sexində istehsal edilən müxtəlif növdə keyfiyyətli makaron 350, 500 qramlıq, 10 kiloqramlıq kisələrdə, Şərq şirniyyatları istehsalı sahəsində hazırlanan Azərbaycan milli şirniyyatları – şəkərbura, Ordubad və Şəki paxlavaları, müxtəlif çeşidlərdə qat-qat, şəkərçörək, milli şirin çörək, biskvit və digər unlu-qənnadı məmulatlar nəfis tərtibatla bəzədilmiş taralarda satışa çıxarılır.

Fermer və fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən xammal şəklində alınan süd məhsulları xüsusi maşınlarla müəssisəyə daşınıb laborator analizdən keçirildikdən sonra istehsala buraxılır. Süddən kərə yağı, pendir, qatıq və ayran istehsal olunur. Ayran 200, kərə yağı 250, 400 qramlıq, 1 və 4 kiloqramlıq, pendir isə 0,5, 1 kiloqramlıq plastik və 17 kiloqramlıq dəmir taralarda qablaşdırılır.

Sanitar-gigiyenik qaydalara ciddi əməl olunduğu müəssisədə müasir avadanlıqlarla təchiz olunmuş iki laboratoriya fəaliyyət göstərir. Müəssisəyə daxil olan xammal və ya hazır məhsul həmin laboratoriyada analizdən keçirildikdən sonra istehsala buraxılır və ya satışa çıxarılır.

İldən-ilə fəaliyyəti genişləndirilən müəssisədə çörək sexi 3, digər istehsal sahələri isə 1 növbəli iş rejimində fəaliyyət göstərir. Burada 200 nəfər çalışır.

Gələcəkdə müəssisədə istehsal olunan məhsulların Azərbaycanın digər regionlarında və xarici bazarlarda satışa çıxarılması nəzərdə tutulur.

“Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətində bütün istehsal prosesi İSO keyfiyyətli idarəetmə sisteminin və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO 9001-2008 və İSO 22000 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılıb.

Ayrı-ayrı ticarət obyektlərində alıcı və satıcıların bu yerli məhsullara olan münasibətini öyrəndik. Fərdi sahibkar Yalçın Qədimov: “Əvvəllər alıcılar xaricdə istehsal olunan ərzaq və qeyri-ərzaq məhsullarına üstünlük verirdilərsə, indi artıq muxtar respublikada istehsal olunan məhsullara daha çox üstünlük verilir. Yerli istehsal müəssisələri artıq alıcıların rəğbətini qazanıb”.

Həkim-terapevt Vəliqulu Həsənov: “Məlumat üçün qeyd edək ki, sağlamlıq baxımından olduqca faydalı olan vitaminlər buğda üyüdülən zaman vitaminlərin daha çox olduğu üst qabığının kəpək olaraq ayrılması nəticəsində ağ unun tərkibində qalmır. Buğdanın üst qabığı B2 və B6 vitaminləri, niyasin, fol turşusu, dəmir və sinklə zəngindir. Ağ un hazırlanarkən kəpəyin ayrılması nəticəsində buğdanın tərkibində olan B2 vitamini 50 faiz, B6 vitamini 77 faiz, niyasin 65 faiz, fol turşusu 60 faiz, dəmir 65 faiz, sink 85 faiz miqdarında azalır. Lakin kəpəkli unun tərkibində yuxarıda sadalanan elementlərin qalması bu undan bişirilən çörəyin keyfiyyətli qida məhsulu kimi insanların sağlamlığının qorunması baxımından əhəmiyyətini artırır. Qeyd edək ki, kəpəkli çörək qidalar içərisində karbohidrat və yağlı maddələrin sorulmasına qismən mane olur, qan şəkəri və ürək-damar xəstəliklərinə, qan yağlarına, eləcə də ağır çəkidən əziyyət çəkənlərin arıqlamasına müsbət təsir göstərir. Kəpəkli çörəyi təkcə artıq çəkidən və şəkərli diabetdən əziyyət çəkənlər deyil, heç bir sağlamlıq problemi olmayanlar da istifadə etməlidirlər. Çünki bu çörəkdən istifadə həm bol miqdarda vitamin qəbuluna, həm də mədə-bağırsaq sisteminin düzgün fəaliyyətinə səbəb olur, bağırsaq xərçənginə tutulma ehtimalının qarşısını alır. Həmçinin kəpəkli çörəyi digər növ çörəyə nisbətən daha çox müddətə saxlamaq mümkündür ki, bu da israfçılığın qarşısını almaqla yanaşı, hər bir istehlakçının ailə büdcəsinə də müsbət təsir göstərir. İnsan sağlamlığı üçün vacib elementlərlə zəngin olan kəpəkli çörək yüksəkkeyfiyyətli qida məhsulu kimi alıcılar tərəfindən rəğbətlə qarşılanır”.

İstehlakçı Nərminə Vəliyeva: “Pensiyaçıyam. Bu şirkətin istehsal etdiyi Şərq şirniyyatları, kərə yağı, qatıq, ayran, makaron məhsullarının daimi alıcısıyam. Dadı, tamı ilə seçilən yerli məhsullar vaxtlı-vaxtında mağazalara çatdırılır”.

Fərdi sahibkar Qadir Əkbərov: “Heyvandarlıqla məşğul olan sahibkar kimi onu deyə bilərəm ki, son illər muxtar respublikamıza alınıb gətirilən və lizinq yolu ilə sahibkarlara verilən məhsuldar cins mal-qara ət və süd istehsalının artımına səbəb olub. Təbii ki, ət və südün emal olunması üçün yaradılmış müəssisələr sahibkarları alıcı problemi ilə üzləşdirmir. Yəni sahibkarın şəxsi istifadəsindən çox olan ət və süd “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin tədarükçüləri tərəfindən gündəlik qəbul edilir. Bu həm istehsalçı, həm də istehlakçı üçün sərfəlidir”.

**Kərəm HƏSƏNOV**



# Matsız şahmatımız

## *Muxtar respublikanın zəka sahibləri Avropanı fəth edir*

Azərbaycanda geniş yayılmış idman növlərindən biri olan şahmat zəngin tarixi ənənələri ilə xalqımızın mədəniyyətində özünəməxsus yer tutur. Ötən əsrin 70-ci illərindən etibarən şahmat sahəsində əldə edilən nailiyyətlər, dünya və Avropa çempionatlarında, beynəlxalq turnirlərdə qazanılan qələbələr ölkəmizdə şahmata marağı daha da artırıb. Şahmatçılarımızın uğurları və şahmat idman növü üzrə mövcud potensial bu idman növünün gələcəyinin təmin edilməsi istiqamətində konkret tədbirlərin görülməsini zəruri edirdi. Bu məqsədlə ölkə başçısı cənab İlham Əliyevin imzaladığı Sərəncamla təsdiq olunan "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı" vətənimizdə şahmatın daha da inkişaf etdirilməsi və beynəlxalq yarışlarda yeni nailiyyətlərin qazanılmasına əsaslı stimul verib. Təsdiq olunan bu dövlət proqramı Naxçıvan Muxtar Respublikasında da şahmatın inkişafına, geniş yayılmasına və kütləviliyə şərait yaradıb.

### *Naxçıvanda...*

Ötən il naxçıvanlı zəka sahiblərinin qazandıqları uğurlarla da yaddaqalan olub. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası Gənclər və İdman Nazirliyi ilə birgə 2014-cü ildə bir çox yarış təşkil etməklə gənc və yeniyetmələrin bu sahəyə cəlb edilməsində müəyyən nailiyyətlər əldə ediblər. Zəka sahiblərimiz ötən il 50-yə yaxın yarışda, turnirdə çıxış edib ki, bu da şahmatın muxtar respublikada nə dərəcədə inkişaf etdiyindən xəbər verir.

Şahmat Federasiyasının sədr müavini Emin Hacıyev bizimlə söhbətində, ilk olaraq, 2014-cü ildə muxtar respublikada keçirilən yarışlar barədə məlumat verdi: "2014-cü il muxtar respublika şahmatçıları üçün uğurlu il kimi tarixə düşdü. Zəka sahiblərimiz istər ölkədaxili, istərsə də beynəlxalq turnirlərdə böyük qələbələr qazanmaqla şahmatın muxtar respublikada sürətlə inkişaf etdiyini bir daha sübuta yetirdilər. Naxçıvan Şahmat Mərkəzində, ilk olaraq, 3-7 və 30-31 yanvar tarixlərində muxtar respublika birinciliyi keçirildi. Fevral ayında isə Naxçıvan Muxtar Respublikasının 90 illiyi ilə bağlı məktəblilər arasında şahmat üzrə birincilik keçirildi. Federasiyanın təşkil etdiyi ən böyük turnir isə artıq ənənə halını alan "Naxçıvan Open-2014" Beynəlxalq Şahmat Festivalı oldu. 3-13 may tarixlərində Naxçıvan Şahmat Mərkəzində keçirilən və ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr olunmuş festivalda 8 ölkədən 22 nəfər qrossmeyster, 15 usta, 6 FİDE ustası olmaqla, ümumilikdə, 292 şahmatçı mübarizə aparıb. Naxçıvan Muxtar Respublikasından 66 şahmatçı bu yarışda iştirak edib, 11 şahmatçımız mükafata layiq görülüb".

Ötən ilin ikinci yarısında Naxçıvan Muxtar Respublikasının bütün şəhər və rayonlarında şahmatın kütləviləşməsi məqsədilə müəyyən tədbirlər görülüb, yarışlar keçirilib. Federasiyanın sədr müavini bildirdi ki, ilin ikinci yarısında qurum adıçəkilən nazirliklə birlikdə keçirdikləri yarışların sayını artırıb. Sentyabr ayında Naxçıvan Şahmat Mərkəzində beynəlxalq reytinqli turnir keçirilib və 5 nəfər kiçikyaşlı şahmatçımız beynəlxalq reytinq qazanıb. Həmçinin analoji turnir 18-24 noyabr tarixlərində də baş tutub. Belə ki, beynəlxalq reytinqli şahmat yarışında bir neçə gənc şahmatçımız beynəlxalq reytinq qazanıb.



28 sentyabr-5 oktyabr tarixlərində Naxçıvan Şahmat Mərkəzinin kuboku uğrunda reytinq yarışı təşkil olunub. 6-8 noyabr tarixlərində isə seçmə yarışlarda 146 zəka sahibi qüvvəsini sınayıb və onların 12-si Azərbaycan çempionatının seçmə yarışlarına vəsiqə əldə edib. Şahmat yarışları təkcə Naxçıvan şəhərində deyil, həmçinin muxtar respublikanın Sədərək, Şahbuz, Ordubad rayonlarında da keçirilib.

### *...Ölkədə...*

Muxtar respublikanın zəka sahibləri əldə etdikləri uğurları ölkə miqyasında keçirilən turnirlərdə də təkrarlayaraq bütün diqqətləri öz üzərlərinə cəlb etməyi bacarıblar. Şahmatçılarımız ötən il ölkədaxili yarışlarda hamıdan güclü olduqlarını sübut ediblər. İlin ilk ayında Şəmkir şəhərində keçirilən Azərbaycan çempionatının final mərhələsinə 16 şahmatçı ilə yollanan idmançılarımızdan Pərviz Qasımov və Sadiq Məmmədov öz yaş qruplarında ikinci yerlərə layiq görülüblər. Bu uğurla kifayətlənməyən S.Məmmədov 2-12 iyun tarixlərində Bakı şəhərində keçirilən Azərbaycan çempionatının final mərhələsində və Vüqar Həşimovun xatirəsinə həsr edilmiş beynəlxalq şahmat turnirində də mükafatçılar sırasına düşüb.

11-22 iyul tarixlərində İsmayıllı şəhərində 16 yaşadək şahmatçılar arasında keçirilən respublika şahmat olimpiadasına 9 şahmatçı ilə yollanan muxtar respublika təmsilçiləri 576 şahmatçı arasında yenə uğur əldə edərək göstərilən diqqət və qayğının hədər yerə getmədiyini sübut ediblər. Belə ki, Sadiq Məmmədov 12 yaşadək şahmatçıların iştirak etdiyi "B" turnirində ikinciliklə kifayətləndiyi halda, Pərviz Qasımov bütün rəqiblərini məğlub edərək olimpiadanın qalibi adını qazanıb.

24 iyul-2 avqust 2014-cü ildə Bakı şəhərindəki turnirdə 3 şahmatçımız iştirak edib. Şahmatçımız Sadiq Məmmədov turnirin mükafatçılarından biri olub.

### *...və dünyada qazanılan uğurlar*

Şahmatçılarımız ölkə miqyasında keçirilən yarışlarda uğur qazanmaqla yanaşı, həm də beynəlxalq dərəcəli turnirlərə vəsiqə əldə ediblər və keçirilən yarışlarda mükafatlar qazanıblar. FİDE hakimi, Naxçıvan Şahmat Federasiyasının sədr müavini Emin Hacıyevin dediklərindən: "Şahmatçılarımız 2014-cü ildə bir çox beynəlxalq turnirə dəvət almışlar. Onların əksəriyyətində çıxış edən idmançılarımızın uğurlu nəticələri bizi sevindirməyə bilməz. Mart ayında Urfan Sevdimalıyev Rusiyanın Tula şəhərində keçirilən beynəlxalq yarışda iştirak etdi və beynəlxalq qrossmeyster normasının birinci balını aldı. May ayının 25-dən 29-na kimi Gürcüstanın Tbilisi şəhərində keçirilən beynəlxalq yarışda isə şahmatçımız Zahid Allahverdiyev 7 yaşlı şahmatçılar arasında ən yaxşı nəticə göstərərək birinci yerə layiq görüldü. Şahmatçılarımız üçün ilin ən uğurlu yarışı Yunanıstanın Kavala şəhərində keçirilən yarış olub. Belə ki, bu şəhərdə məktəblilər arasında keçirilən Avropa çempionatında 7 şahmatçı iştirak edib. Bu şahmatçılardan Pərviz Qasımov gümüş medal qazanıb. Ümumiyyətlə, keçirilən yarışlara nəzər yetirsək, Türkiyənin Manisa şəhərində Elvin Namazlının, Birləşmiş Ərəb Əmirliklərində və Gürcüstanda Pərviz Qasımovun qazandığı uğur muxtar respublika şahmatçılarının gücündən xəbər verir".

Sonda federasiyanın sədr müavini muxtar respublika rəhbərinə şahmata və zəka sahiblərinə göstərdiyi diqqətə görə minnətdarlığını bildirdi: "Naxçıvan idmanı son illər özünün ən yüksək zirvəsindədir. Təbii ki, bunda ən böyük amil göstərilən dövlət qayğısıdır. Ötən il Naxçıvan Şahmat Mərkəzində Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə tədbir keçirildi. Muxtar respublika rəhbərinin qayğısı ilə tədbirdə 93 qabaqcıl şahmat müəlliminə və şahmat məktəbinə, ümumilikdə, 112 kompüter dəsti verildi, bütün ümumtəhsil məktəblərinə 6 cilddə şahmat kitabları paylanıldı. Bütün bunlar şahmat idman növünün sürətli inkişafına stimul olan amillərdəndir.

**✍ Ceyhun MƏMMƏDOV**

## Ötən il ailə dəyərlərinin qorunması diqqət mərkəzində saxlanılıb

*Ailə dəyərlərinin qorunması, yeni nəslə aşılanması, yeniyetmə və gənclərin bu dəyərlərə sahib çıxması və yaşatması istiqamətində dövlətimiz tərəfindən ardıcıl tədbirlər görülür.*

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu sahədə qarşıya qoyulan vəzifələrin icrası ilə bağlı ötən il 6-sı muxtar respublikanın rayon və kənd mərkəzlərində olmaqla, ümumilikdə, 9 dəfə tədbir keçirib, ali və orta ixtisas məktəbləri tələbələri arasında 1 dəfə rəsm və inşa-yazı müsabiqəsi təşkil edib. Bundan əlavə, komitə əməkdaşları aidiyyəti orqanlarla birlikdə muxtar respublikanın 33 şəhər, rayon və kənd tam orta məktəbi və məktəbdənkənar təlim-tərbiyə müəssisələrində uşaqlar arasında maarifləndirici söhbətlər aparıb və seminarlar keçirib.

Tədbirlərdə milli dəyərlərimizin tərkib hissəsi olan ailə institutunun qorunması və onun inkişafının təmin edilməsi, ailə münasibətlərində adət-ənənəyə yer verilməsi, sağlam ailənin formalaşmasının əsasları, ailə üzvləri vəzifələrinin düzgün yerinə yetirilməsi, müasir texnologiyaların gənc ailələrə təsiri istiqamətində söhbətlər aparılıb. Yeni nəslin gələcəkdə quracağı ailənin bütövlüyünü qorumaq üçün ailə dəyərlərinin vacibliyi, ailələrdə böyüyən uşaqların sağlam yaradıcı əməyə alışmaları, zərərli vərdişlərdən çəkinmələri, təhsil-tərbiyə məsələləri, ümumiyyətlə, sağlam həyat tərzi yaşamaları yollarından ətraflı bəhs olunub.

Uzunömürlü ailələrin keçdiyi həyat yolunun, bütövlüyünün sirlərinin gənc ailələrə aşılanması, ailə dəyərlərinin təbliği məqsədilə komitə tərəfindən muxtar respublikada yaşayan 11 uzunömürlü ailənin evlilik yubileyləri qeyd edilib.

Humanist olmaq, qayğı göstərmək, xüsusi qayğıya ehtiyacı olanları sevindirmək ailə dəyərlərimizdəndir. Bu məqsədlə aidiyyəti təşkilatlarla birgə ötən il 80-ə yaxın ahıl, tənha, əlil qadına və aztəminatlı ailəyə baş çəkilib, onların ümumi problemləri ilə maraqlanılıb, mövcud problemlərin aradan qaldırılması ilə bağlı işlər görülüb, ahıl vətəndaşlar və aztəminatlı ailə üzvləri tibbi müayinədən keçirilib, zəruri olduqda onlara dərman preparatları, geyim dəstləri, məişət əşyaları və ərzaq payı verilib. Həmçinin 115 nəfər hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud uşaqlar, aztəminatlı ailələrin uşaqları geyim dəstləri ilə təmin edilib, onlara hədiyyələr verilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

Ötən ilin dekabr ayında muxtar respublikamızda epidemioloji vəziyyət sabit olmuş, zəhərlənmələr baş verməmiş, infeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilmişdir. Yenidoğulmuş uşaqların 94,6 faizi idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd almışdır. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qidalanma sənayesi, kommunal, ictimai iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilmiş, su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, tullantı və çirkab suları axıdılan yerlərdə, məişət tullantıları qoyulan meydançalarda 7188 kvadratmetr dezinfeksiya, 3385 kvadratmetr dezinseksiya tədbirləri həyata keçirilmişdir.

Ay ərzində bakterioloji laboratoriya fəaliyyətini davam etdirmiş, 41 su, 109 yuyuntu nümunələrinin, 413 digər nümunələrin müayinələri aparılmışdır.

Radioloji qrup tərəfindən 8 yerdə gündəlik olaraq radioloji ölçmələr aparılmış, təbii fon şüalanması yol verilən hədd daxilində olmuşdur. Qidalanma gigiyenası laboratoriyasında 89 nümunədə 356 müayinə aparılmış, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun, həmçinin 5 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu müəyyən edilmişdir.

Kommunal gigiyena laboratoriyasında 38 nümunədə 304, Toksikoloji, xarici mühitdə və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 27 nümunədə 109 müayinə aparılmışdır.

Əhalinin sanitariya-epidemioloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitariya-epidemioloji xidmət orqanları tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətə görə yoxlanılmış, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülmüşdür.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 9 fevral 2015-ci ildə açıq hərraca çıxarılacaq əmlaklar haqqında

| Sıra № | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (25 %) güzəştli satış qiyməti (manat) | Güzəştli satış qiymətinin 5 % həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Ümumi sahəsi 402,3 kv.m, 241,9 kv.m yaşayış sahəsi olan fərdi yaşayış evi. | Şərur rayonu, Zeyvə-Düdəngə kəndi | 69.000,00 | 43.987,50 | 2.199,37 |

Hərracda qanunvericiliyə müvafiq olaraq, alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların güzəştli satış qiymətinin 5 % məbləğində beh "Bank of Azerbaijan" ASC 12 saylı Naxçıvan filialında olan AZ 98 AZEJ 00800450190909001 nömrəli hesabına və "Kapital Bank" ASC Naxçıvan MR Baş İdarəsinin AZ 87 AİİB 45090249443100007500 nömrəli hesabına ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirakçı haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ 21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Heydər Əliyev prospekti 6) saat $9^{00}$-dan $18^{00}$-dək qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *kommersiya banklarına ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 9 fevral 2015-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

### *İtmişdir*

Türkiyə vətəndaşı Ergüntürk Ali Rızaya Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Türkiyə vətəndaşı Ergüntürk Ali Rızaya Naxçıvan Muxtar Respublikası ərazisində haqqıödənilən əmək fəaliyyətini həyata keçirməsinə dair verilmiş 000939 nömrəli fərdi icazə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 25